**Respublika.-**2024.-23 iyul.-№153.-S.7.

# Güclü Azərbaycan regionda tarixi, geosiyasi dəyişiklik yaradıb

## Dövlət başçısının Şuşada müntəzəm Qlobal Media Forumunun keçirilməsi təklifi Qarabağın beynəlxalq əməkdaşlıq məkanına çevrildiyini göstərir

**Mustafa Kamal**

**"Cənubi Qafqaz regionuna gəldikdə, deyə bilərəm ki, biz tarixi transformasiyanın şahidiyik, tarixi, geosiyasi dəyişikliklər baş verir". Bu fikirləri Prezident İlham Əliyev iyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda deyərək bildirib ki, ənənəvi ittifaqlar bir qədər zəifləyib və yeni əməkdaşlıq formatları meydana gəlib. Əlbəttə, ötən ilin sentyabrında ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpası təkcə birinci və ikinci Forum arasında deyil, ümumiyyətlə müasir tariximizdə mühüm hadisə oldu: "Bundan əlavə bir çox hadisələr baş verdi və ümid edirəm ki, bütün bu hadisələr regionu daha proqnozlaşdırılabilən edəcəkdir. Yəni biz - bu regionun xalqları özümüzü təhlükəsiz hiss edəcəyik. Buna əminəm, münaqişələr və qarşıdurmalar keçmişdə qalıb".**

2-ci Şuşa Qlobal Media Forumunda jurnalistlərin suallarını cavablandıran Azərbaycan Prezidenti ölkəmizin xarici siyasətinin istiqamətləri, regionun siyasi palitrası, qlobal iqtisadi layihələr və digər məsələlər haqqında dolğun məlumat verdi. Açıqlamalar mühüm çağırış və mesajlarla zəngin idi. Regionda və Azərbaycanda baş verən hadisələr 30 il davam edən işğal dönəmində və postmüharibə dövründə heç də həmişə obyektiv şəkildə işıqlandırılmayıb. Azərbaycan haqqında beynəlxalq mediada yanlış, həqiqətə uyğun olmayan məlumatların bizim üçün artıq həyat tərzimizin bir hissəsinə çevrildiyini qeyd edən dövlətimizin başçısı bu prosesdə, xüsusən də erməni diasporunun fəal rol oynadığını diqqətə çatdırdı.

Forum üçün məkan olaraq Şuşanın seçilməsi rəmzi məna kəsb edirdi. Yalan məlumatların ifşasına həsr edilmiş bu tədbir ümumən dezinformasiyaya, erməni yalanlarına qarşı mübarizə baxımından da əhəmiyyətlidir. Mədəniyyət paytaxtımız olan Şuşa da erməni dezinformasiyalarının hədəfində dayanan yurd yerlərimizdən biridir. Şuşada keçirilən forumlar Azərbaycanın həm də regional problemlərin həllində əsas aktorlardan biri olduğunu göstərir. Bu kimi tədbirlər yeni reallıqları beynəlxalq ictimaiyyətə çatdırmaq baxımından mühüm rol oynayır. Eyni zamanda regionun gələcəyi ilə bağlı Azərbaycanın narahatlığı və səyləri aydın görünür. Biz həqiqətləri, ədalətli fikirləri məhz belə platformalar sayəsində beynəlxalq aləmə çıxarmağa nail oluruq. Prezident İlham Əliyevin Şuşada müntəzəm olaraq Qlobal Media Forumunun keçirilməsi təklifini verməsi Qarabağın artıq beynəlxalq əməkdaşlıq məkanına çevrildiyindən xəbər verir.

Cənubi Qafqaz regionu beynəlxalq münasibətlər sisteminə əsaslı təsir göstərən, yeni geosiyasi reallıqlar yaradan əlverişli coğrafi mövqeyə malikdir. Geopolitik reallıq Cənubi Qafqazı Şərq-Qərb və Şimal-Cənub dəhlizinə çevirdiyindən bu region daim böyük güclərin diqqət mərkəzində olub. Qarabağ müharibəsinin nəticəsi Qafqazın yeni geosiyasi vəziyyətinin formalaşmasında mühüm mərhələ oldu. Nəticədə, Qafqazın keçmişi ilə gələcəyi arasında köklü dəyişiklik baş verdi. Regional güc dəyişikliyi və Qafqazda yeni geosiyasi reallıq, qlobal və regional güclər tərəfindən qəbul edilib. Rusiya və Türkiyə prezidentlərinin məsələyə münasibəti, beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində atılan addımlar, regionda digər güclərin maraqlarına uyğun olaraq edilən siyasi gedişlər onu göstərdi ki, bölgədə digər qlobal və regional oyunçuların effektivliyi azalıb. 10 noyabr üçtərəfli Bəyanatından sonra siyasi proseslərə seyrçi mövqeyində qalmaq məcburiyyətində olan dövlətlər və güc mərkəzləri vəziyyətdən çox narahat olduqlarını açıq şəkildə bəyan edirlər. Bəzi təşkilatların fəaliyyətinin əhəmiyyətsiz olduğunu anlayan böyük güclər məsələyə bu və ya digər şəkildə reaksiya verməyə çalışırlar. Ancaq dünya və region dövlətləri də yaxşı başa düşür ki, artıq regionun gələcək nicatı bölgədə yaranacaq daimi sabitlikdən asılıdır. Cənubi Qafqazda Azərbaycanın maraqlarının təmin edilməli olduğunu vurğulayan dövlət başçısı bəyan etdi ki, kimsə bizim istəyimizi nəzərə almadan hərəkət etsə, uğursuzluğa düçar olacaqdır. Azərbaycan həm ikitərəfli formatda dialoqu təşviq edir, həm də Cənubi Qafqazın 3 ölkəsi arasında əməkdaşlıq platformasının yaradılması ilə bağlı təklif irəli sürür. Ermənistan delimitasiya komissiyalarının iclaslarında ikitərəfli formatda iştiraka razılıq verir. Lakin sülh sazişi ilə bağlı danışıqlarda ikitərəfli formatdan qaçaraq təminatçı-himayədar axtarır. Cənubi Qafqazda sülhün və sabitliyin qorunması təkcə region üçün deyil, demək olar ki, hətta bütün Avrasiya üçün qlobal təhlükəsizlik məsələsidir.

Forumda dövlətimizin başçısı Cənubi Qafqazın gələcək iqtisadi inkişaf və siyasi əməkdaşlıq perspektivləri barədə də fikirlərini bölüşüb. 44 günlük Vətən müharibəsi Cənubi Qafqazda tamamilə yeni situasiya, yeni şərtlər, yeni əməkdaşlıq imkanları yaradıb. Bu situasiya Cənubi Qafqazda regional inkişaf və əməkdaşlıq perspektivlərini qlobal gündəlikdə duran mühüm məsələlər sırasına çıxarıb. Azərbaycanın həyata keçirdiyi enerji və nəqliyyat layihələri Cənubi Qafqazı transformasiyaya uğradıb. Regionun iki ölkəsi -

Gürcüstan və Azərbaycan əlavə maliyyə ehtiyatları əldə edə bilib. Ölkələrimizin beynəlxalq tərəfdaşlar qarşısında əhəmiyyəti artıb. Azərbaycan Prezidentinin də vurğuladığı kimi, bu gün Cənubi Qafqazda əlimizdə olanların təməli bizim birgə səylərimiz sayəsində qoyulub. Azərbaycan toqquşma məkanı deyil, əməkdaşlıq yeri olmalıdır. Natamam, qeyri-dəqiq və manipulyasiya edilmiş hesabatlar Qərbdən qaynaqlanır. O, gündəlik həyatımıza çevrilir. Təəccüblənirdik, məyus olurduq, indi isə biganə yanaşırıq. Vaxt keçdikcə Qərbdə siyasi dairələrdə reallıq daha çox üzə çıxır və Azərbaycana bərabər tərəfdaş kimi yanaşılır. Biz qarşılıqlı hörmət, qarşılıqlı anlayış, qarşılıqlı maraqların gözlənilməsi və uzun əsrlər boyu xalqlarımız arasında əlaqələrə əsaslanaraq münasibətləri formalaşdırırıq.

Onu da qeyd etmək lazımdır ki, Zəfərimizdən üç il sonra - 2023-cü ilin sentyabr ayında Silahlı Qüvvələrimizin həyata keçirdiyi birgünlük antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpa edilməsi, ölkəmizin həyatında yeni dövrün başlanğıcını qoydu. Azərbaycan bu illər ərzində daha da gücləndi, qüdrətləndi, dünya birliyinin fəal üzvü olaraq sözünün imzası qədər əhəmiyyətli olduğunu təsdiqlədi. Forumda Azərbaycana qarşı çirkin planlar quranlara və qurmaq planları olanlara deyildi ki, torpaqlar azad edildikdən sonra ölkəmizin daxilində hər hansı bir təhlükə yoxdur, sabitlikdir, cəmiyyətdə həmrəyliyin səviyyəsi heç vaxt olmadığı qədər yüksəkdir. Amma Azərbaycan xalqı ayıq olmalı, keçmişi, qonşunun kürəyimizə bıçaq sancdığını unutmamalı, istənilən ssenariyə hazır olmalıdır. Tədbirdə digər əhəmiyyətli məqam isə xarici qonaqların erməni vandalizminə məruz qalmış ətraf rayonlara aparılması, oradakı bərpa işləri ilə tanış edilməsidir. Bununla Azərbaycan torpaqlarını sürətli şəkildə işğaldan azad edə bildiyi kimi, dağıntılara məruz qalan ərazilərini də həmin sürətlə bərpa edəcək gücdə olduğunu dünyaya göstərdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev bu günün gələcəyinə inanırdı. Hətta 44 günlük Vətən müharibəsinin getdiyi günlərdə xarici mətbuata verdiyi müsahibələrin hər birində qələbəmizə böyük əminliyini ifadə edirdi. Azərbaycan Prezidenti İlham Əliyev 2-ci Şuşa Qlobal Media Forumunda çıxışı zamanı torpaqlarımızın azad edilməsindən danışaraq bildirib ki, əlbəttə, insan bəzən çətin qərarlar verməli olur. Şəxsən mən Qarabağı azad edərkən 17 il idi Prezident idim və lazım olsaydı, biz daha 17 il gözləyərdik ki, torpaqlarımızı azad edək. O zaman fərqi yoxdur kim Prezident olacaqdı. Yəni bunun heç bir fərqi yoxdur. Dövlətimizin başçısı, həmçinin deyib ki, "bəlkə də, bu hadisə 50 il sonra baş verəcəkdi. Yəni burada insan eqoist olmalı deyil. Bu, mənimlə bağlı deyil. Fərq etməz, lider və prezident kimdir, bu, ləyaqət məsələsi idi".

Münaqişənin sona çatmasından sonra məhz Azərbaycan Ermənistana sülh sazişi ilə bağlı danışıqlara başlamaq təşəbbüsünü irəli sürdü. Artıq müsbət tendensiyaya və sülhə doğru addımlar atılır, sərhədlərin delimitasiyası başlayıb. Buna iki ölkə tərəfindən hər hansı bir vasitəçi olmadan nail olunub. Azərbaycan Ermənistanın işğalından azad edilmiş ərazilərə azərbaycanlı məcburi köçkünlərin qaytarılması və mədəni irs olan obyektlərin bərpası kimi məsələlərin həlli üçün beynəlxalq təşkilatlar və tərəfdaşlarla işləməyə hazırdır. Bu yanaşma regionda sülh və yenidənqurmaya yönələn qərarlılığı nümayiş etdirir. Ölkəmiz öz təhlükəsizliyini gücləndirmək üçün addımlar atmaqla yanaşı, geniş regional təhlükəsizliyi də müdafiə edir. Regional təhlükəsizlik isə maraqlı tərəflərin əməkdaşlığını zərurətə çevirir. Sülhə sadiqlik, avropalı tərəfdaşlarla əməkdaşlıq, humanitar problemlərin həlli, iqtisadi inkişafın təşviqi və regional təhlükəsizliyin təmin edilməsi Azərbaycanın region üçün strategiyasının mühüm elementləridir. Azərbaycan Cənubi Qafqazın gələcəyinin formalaşmasında fəal rol oynayır.